*Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/3 nömrəli qərarı ilə təsdiq edilmişdir*

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Kadr hazırlığı və gənclərlə iş üzrə komitəsi haqqında**
***Əsasnamə***

## I. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurası yanında Kadr hazırlığı və gənclərlə iş üzrə Komitə, gələcəkdə «Komitə» adlanan, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə"yə uyğun olaraq yaradılıb və Auditorlar Palatasının daimi qüvvədə olan işçi orqanıdır.

1.2. Komitə öz fəaliyyətində "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununu, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməni, Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) Beynəlxalq Təhsil Standartlarını (BTS), Peşəkar Mühasiblərin Etika Məcəlləsini, Auditorların ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydalarını, qüvvədə olan qanunvericilik aktlarını, Auditorlar Palatası Şurasının qərarlarını, Palata rəhbərliyinin əmr və sərəncamlarını, hazırkı Əsasnaməni və Auditorlar Palatasının idarəetmə orqanlarının digər daxili aktlarını rəhbər tutur.

1.3. Komitə Auditorlar Palatası Şurasının müvafiq qərarının qəbul olunduğu tarixdən yaranmış hesab olunur.

1.4. Komitə gənc kadrlarla sistemli işin təşkili, iqtisadi və ya hüquqi təhsil alan ali təhsil müəssisələrinin yuxarı kurs tələbələrinin auditor və mühasib peşəsinə cəlb edilməsi, Auditorlar Palatasının inkişafında tapşırıqların həlli üçün gənclər siyasətinin reallaşmasında əməkdaşlıq, Auditorlar Palatasının tərkibinə cəlb edilməsi üçün gənclərin intellektual və şəxsi potensialının aşkar olunması məqsədi ilə yaradılır.

1.5. Komitə Auditorlar Palatasının Şurasına tabedir.

## *II. KOMİTƏNİN FUNKSİYALARI*

2.1. Komitə aşağıdakıları həyata keçirir:

- Auditorlar və gənc mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydalarına müvafiq olaraq, auditorların ixtisasının artırılması prosesinin həyata keçirilməsini;
- auditorların sertifikatlaşdırılmasını;
- verilmiş sertifikatların reyestrinin aparılmasını;
- auditorların ixtisasının artırılması üzrə perspektiv (illik) planının işlənib hazırlanmasını;
- auditorların ixtisasartırma qrafiklərinin tərtibatını;
- keçirilmiş ixtisasartırma kursları və səlahiyyətli orqanla təyin edilmiş forma üzrə sertifikatların verilməsi haqqında illik hesabatının formalaşdırılması;
- auditorların ixtisasartırma kurslarının təşkili ilə bağlı ayrı-ayrı xidmətlər göstərən auditorlar və auditor təşkilatlarından təkliflərin ilkin araşdırılmasını;
- Auditorlar Palatasına auditorların ixtisasartırma prosesinin təkmilləşdirilməsi üzrə daxil olan təkliflərin (məkubların, müraciətlərin) araşdırılmasını;
- auditorların daimi peşəkar inkişaf tələblərinin yerinə yetirilməsinin monitorinqini;
- Auditorlar Palatasının üzvlərinin ixtisasının artırılması üzrə məlumat bazasının formalaşdırılması və aparılmasını;

- auditorlardan hesabatların qəbulunu və ixtisasının artırılmasını təsdiq edən digər sənədlərin qiymətləndirilməsini;

- daimi peşəkar inkişaf tələblərinin yerinə yetirilməsi üzrə nəzarəti;

- Auditorlar Palatasının üzvlərinin ixtisasartırma prosesinin cari durumunun araşdırılmasını və müvafiq qərarların qəbul edilməsini;

- tələbələr və gənc mütəxəssislər arasında maarifləndirmə işlərinin aparılması üçün ölkənin aparıcı ali təhsil müəssisələri ilə qarşılıqlı əməkdaşlığı, gənc mütəxəssislərin maraqlandırılması haqqında məlumatı toplanmağı, təhlili, ümumiləşdirilməni və təqdim etməni, gənc mütəxəssislərin təcrübə mübadiləsində iştirak edən işçi yerlərinin, təşkilatların siyahısının təklifini;

- Auditorlar Palatasının tərkibində gənclərin cəlb edilməsi, auditor və ya mühasibat fəaliyyətində iştirakın ilkin mərhələsində onların adaptasiyasına köməklik etmək;

- Auditorlar Palatasının fəaliyyətinə tələbələrin, gənc mütəxəssislərin, stajorların cəlb edilməsi və onlarla əməkdaşlığın təşkili;

- Gənclərin özünün realizə olunmasında şərait və imkanların yaradılması, audit və mühasibat peşəsinin inkişafında onların potensialından istifadə;

- Auditorlar Palatasının idarəetmə orqanları tərəfindən Komitənin üzərinə qoyulmuş digər funksiyaların yerinə yetirilməsini təşkil edir.

2.2. Auditorlar Palatası qarşılıqlı şəkildə mühasibat uçotu və audit sahəsində əlavə ixtisasartırma kursları həyata keçirən və tətbiq edən təşkilatlarla **(bundan sonra təşkilatlar)** birgə fəaliyyət göstərə bilər.

2.3. Üzərinə qoyulmuş vəzifə və funksiyaların yerinə yetirilməsi üçün Komitə auditorların həm ixtisasının artırılması prosesinin təşkilinin, həm də keçirilməsinin keyfiyyətinin təkmilləşdirilməsinə yönəlmiş müvafiq təklifləri hazırlayır və Auditorlar Palatasının Şurasına təqdim edir.

## *III. KOMİTƏNİN İŞİNİN TƏŞKİLİ*

3.1 Komitənin üzvləri müvafiq sahə üzrə yüksək ixtisaslı və peşəkar mütəxəssislərdən (Azərbaycan Respublikası Auditorlar Palatası Şurası ilə əməkdaşlıq edən iqtisadçı alimlərdən, auditorlardan, mühasiblərdən, hüquqşünaslardan, müvafiq maliyyə qurumlarının rəhbərlərindən)– cəmi 5 nəfərdən ibarət olmaqla təşkil olunur.

3.2. Komitənin fəaliyyəti onun tərkibinə daxil olmuş üzvlər tərəfindən həyata keçirilir.

3.3. Komitəyə Auditorlar Palatası Şurasının ümumi iclasında seçilən - Komitənin sədri rəhbərlik edir.

3.4. Komitənin üzvlərini Auditorlar Palatasının Şurası seçir. Komitə üzvləri öz fəaliyyətini ictimai əsaslarla həyata keçirirlər.

3.5. Komitənin sədri üzvlərinin arasından, özünün müavinini və ya onun olmadığı təqdirdə onu əvəz edən müavini təyin edir.

3.6. Komitənin katibinin vəzifə öhdəliklərini Auditorlar Palatasının müvafiq struktur bölməsinin əməkdaşı icra edir.

3.7. Komitənin iclasları ildə üç dəfədən az olmayaraq keçirilir.

3.8. İclasda Komitə üzvlərinin ½-dən az olmayaraq iştirak etdikləri təqdirdə, iclas qanuni hesab edilir.

3.9. Komitənin iclaslarına - Komitənin sədri, o olmadığı təqdirdə isə -sədrin müavini rəhbərlik edir.

3.10. Hər bir iclas haqqına protokol tərtib edilir, sədr və katib tərəfindən imzalanır.

3.11. Qərarlar iclasda iştirak edən Komitə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səs bərabərliyi olduğu halda Komitə sədrinin səsi həledicidir.

3.12. Komitə sədrinin təşəbbüsü ilə Komitənin qərarları qiyabi səsvermə vasitəsilə qəbul edilə bilər. Qiyabi səsvermə iclasda iştirak edən Komitə üzvlərinin səsləri ilə birlikdə (qarışıq səsvermə), yaxud iclas olmadan tətbiq edilə bilər. Qarışıq səsvermə iclasa gəlmiş üzvlərin iştirakı ilə aparılır.

Komitənin sədri gündəliyi müəyyən edir, səsverməyə qoyulmuş məsələni işləyib hazırlayır və səsvermənin aparılması müddətini (dövrünü) müəyyən edir.

Komitənin katibi bütün üzvlərə səsvermə üçün bülletenləri göndərir (təhvil verir).

Komitənin üzvləri səsvermə bülletenləri əldə etdikdən sonra onları doldurur və sədr tərəfindən təyin olunmuş tarix və saatdan gec olmayaraq, Komitənin katibinə poçt, elektron poçt (şəxsi elektron ünvan mövcud olduğu təqdirdə), faksimil vasitəsilə göndərirlər. Bülletenin məzmununun telefonoqram vasitəsilə şəxsən Komitənin katibinə ötürülməsinə yol verilir.

Əvvəlcədən qarışıq səsvermənin istifadə olunduğu iclasa qiyabi səsvermə üçün bülletenini göndərmiş Komitə üzvünün iclasa gələrək şəxsən iştirak etdiyi və səs verdiyi təqdirdə, əvvəlcədən göndərilmiş bülleteninin iclasın kvorumunun müəyyən edilməsi və gündəliyin məsələləri üzrə səslərin hesablanması zamanı nəzərə alınmır.

İclasın protokolunda mütləq səsvermə üsulu, qiyabi və ya qarışıq səsvermənin nəticələri göstərilir və ona bülletenlər, yaxud Komitə üzvlərinin istəklərinin bildirilməsini təsdiq edən digər sənədlər əlavə edilir.

3.13. Komitənin fəaliyyəti Auditorlar Palatasının Şurası tərəfindən təsdiq edilmiş illik planın əsasında həyata keçirilir.

3.14. Məlumata əsasən komitə üzvü mütəmadi olaraq komitənin işində iştirak etmədikdə, müəyyən olunmuş qaydaları pozduqda və ya etika normalarına zidd hərəkət etdikdə Palata Şurasının qərarı ilə Komitənin tərkibindən çıxarıla və başqa şəxslə əvəz oluna bilərlər.

3.15. Komitə ötən (bitmiş) ilin nəticələri üzrə növbəti ilin birinci rübü ərzində öz fəaliyyəti haqqında Auditorlar Palatası Şurasına qısa hesabat təqdim edir.

## *IV. KOMİTƏ ÜZVLƏRİNİN HÜQUQLARI*

Komitə üzvləri aşağıdakı hüquqlara malikdirlər;

4.1. İxtisasartırma Komitəsinin iclaslarında iştirak etmək, müzakirə olunan məsələlər üzrə təkliflər vermək, qəbul olunan qərarlar barədə səs vermək;

4.2. İxtisasartırma proqramlarıın, tədris üzrə planın, tədris-metodik vəsaitlərin hazırlanmasında iştirak etmək, bu istiqamətdə təklif və tövsiyyələr vermək;

4.3. İxtisasartırma prosesinin təkmilləşdirilməsi, ixtisasartırma ilə bağlı mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə təkliflər vermək;

4.4. Kurs iştirakçılarının bilik səviyyəsinə dair şəxsi rəy bildirmək və onun kollektiv qərar əsasında qiymətləndirilməsində iştirak etmək, kursun nəticələrinə görə tərtib olunan protokolda şəxsi mövqeyini qeyd etmək və protokolu imzalamaq.

## *V. KOMİTƏ ÜZVLƏRİNİN VƏZİFƏLƏRİ*

Komitə üzvlərinin vəzifələri aşağıdakılardan ibarətdir;

5.1. Auditorların ixtisasartırma kurslarını yüksək tələblər səviyyəsində həyata keçirmək;

5.2. İxtisasartırma kursları üzrə proqramların, tədris-tematik planın və müvafiq tədris vəsaitlərinin hazırlanmasında iştirak etmək, kurs iştirakçılarının bilik səviyyəsinin qiymətləndirilməsi meyarlarını müəyyənləşdirmək və onu təsdiq edilmək üçün Palata rəhbərliyinə təqdim etmək;

5.3. İxtisasartırma proqramlarının təkmilləşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi ilə bağlı müvafiq struktur bölmələrilə birgə zəruri tədbirləri həyata keçirmək;

5.4. Komitənin səlahiyyətinə aid edilmiş məsələlərin müzakirəsi və vəzifələrin həyata keçirilməsi üçün mütəmadi iclaslar keçirmək;

5.5. Auditorlara keçilmiş proqram üzrə bilik səviyyəsini müəyyən daydalara uyğun olaraq, kollektiv razılığa əsasən qiymətləndirmək;

5.6. Kursun nəticələrini müəyyən olunmuş qaydada rəsmiləşdirmək;

5.7. Auditorlar Palatasının fəaliyyətinin bütün istiqamətlərində gənclərlə işin koordinasiyası;

5.8. Gənc auditor təşkilatlarının rəhbərləri və mütəxəssisləri ilə görüşlərin təşkili;

5.9. Gənc mütəxəssislər üçün müsabiqələrin, seminarların, treninqlərin aparılması haqqında təkliflərin hazırlanması;

5.10. İstehsalat, hüquqi, sosial-əmək, psixoloji və gənc nütəxəssislərin adaptasiyası ilə bağlı digər problemlərin aşkar olunması, təhlili və onların həll olunması üzrə təkliflərin hazırlanması;

5.11. Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarında gənc mütəxəssislərin istehsalat təcrübəsinin təşkili üçün lazım olan sənədlərin hazırlanmasında iştirak etmək;

5.12. Gənclərin magistratura və doktoranturaya zəruri ixtisasartırma kurslarına seçilməsi və göndərilməsi;

5.13. Gənclərin iştirakı ilə mədəni-kütləvi və idman tədbirlərinin keçirilməsi;

5.14. Gənclərin rəhbər və ictimai işlərə daha geniş cəlb edilməsi;

5.15. Gənclərin peşə hazırlığının yüksəldilməsi və koryeralarına qayğı;

5.16. Gənclərin auditor fəaliyyətinə daha geniş cəlb edilməsi məqsədilə müvafiq ali məktəblərilə əməkdaşlığın genişləndirilməsi;

5.17. Gənc auditorlardan ibarət auditor təşkilatlarının yaradılması.

## *VI. KOMİTƏNİN SƏNƏDLƏRİ*

6.1. Komitə tərəfindən hazırlanan gündəliklər, protokollar, həmçinin sənədlər işçi qruplar tərəfindən yazılı formada rəsmiləşdirilir və saxlanması üçün Auditorlar Palatasının müvafiq struktur bölməsinə təqdim edilir.

6.2. Komitə sədri Komitənin iclasının protokollarının aparılmasını, iclasın gündəliyini hazırlanmasını və bütün komitə üzvlərinə, işçi qruplarına, Auditorlar Palatasının rəhbərliyinə göndərilməsini təşkil edir.

## *VII. SON MÜDDƏALAR*

7.1. Bu əsasnaməyə dəyişikliklər və əlavələr Komitənin üzvləri ilə müzakirənin nəticəsi üzrə Komitə sədri tərəfindən hazırlanır.

7.2. Hazırkı Əsasnaməyə dəyişikliklər və əlavələr Auditorlar Palatası Şurasının səlahiyyətlərinə aid edilir.